**Nihad Ramiz oğlu Hüseynov**

**UOT:338.48: 338.482.22; Jel: Z30; Z31; Z32; Z38.**

# Turizm müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsində dövlət tənzimlənməsi mexanizmləri və hüquqi bazanın təkmilləşdirilməsi yolları

**_Xülasə_**

*Tədqiqatın məqsədi – turizm müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsində dövlət tənzimlənməsi mexanizmləri, hüquqi bazanın təkmilləşdirilməsi yollarının müəyyənləşdirilməsindən ibarətdir. Bu məqsədlə turizm müəssisələrinin rəqabətqabiliyyətlilik problemləri açıqlanmş və həmin problemlərin həllində dövlət tənzimlənməsinin rolu verilmişdir. COVİD-19 pandemiyası dövründə turizm sektorunun üzləşdiyi ciddi çətinliklərdən yanaşmaqla, turizm müəssisələrinin fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi məsələləri baxılmışdır. Turizmin dövlət tənzimlənməsi ilə bağlı prioritet məsələlər araşdırılmış və mülahizələr irəli sürülmüşdür. Turizm sektorunun səmərəlilik problemlərinin həlli istiqamətində hüquqi bazanın optimal olmasının vacibliyi əsaslandırılmış və bununla bağlı təkmilləşdirməyə dair təkliflər hazırlanmışdır. Tədqiqatın metodologiyası – tədqiq edilən problemlər üzrə praktikada və iqtisadi ədəbiyyatlarda yer almış nəzəri-metodoloji yanaşmalar təhlil edilmiş və sistemləşdirilmişdir. Məqalədə əsasən təhlil, sintez və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti – formalaşdırılan elmi-praktiki baxışlardan və elmi müddəalardan turizm müəssisələrinin rəqabətqabiliyyətliyinin yüksəldilməsi məqsədilə tənzimləyici dövlət tədbirlərinin işlənməsində və hüquqi bazanın təkmilləşdirilməsində faydalı ola bilər. Tədqiqatın nəticələri – müasir qlobal təsirlərin genişləndiyi bir şəraitdə, həmçinin COVİD-19 pandemiyasının mənfi təsirinin davam etdiyi dövrdə turizm müəssisələrinin durğunluqdan çıxarılması, postpandemiya zamanı bu müəssisələrin fəaliyyətinin daha çevik olaraq dövlət tərəfindən dəstəklənməsinin vacibliyi, hüquqi aktların stimullaşdırıcı xüsusiyyətlərinin gücləndirilməsi zərurəti əsaslandırılmışdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – əsas elmi müddəa kimi yeni çağırışlar kontekstində və qlobal problemlərin artdığı bir dövrdə turizm müəssisələrinin rəqabətqabliliyyətlik məsələlərinə müasir elmi-iqtisadi və praktiki baxış formalaşdırılmışdır. Turizm müəssisələrinin dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi tədbirlərinin səmərəliliynin yüksəldilməsi imkanları əsaslandırılmış və verilmişdir. Müasir dövrün tələblərinə adekvat olaraq turizm müəssisələrinin rəqabətqabliyyətlilik səviyyəsinin yüksəldilməsində dövlət tənzimlənməsi mexanizmlərinin yenilənməsi və təkmilləşdirilməsi, bunlarla bağlı olaraq hüquqi bazanın gücləndirilməsi üzrə təkliflər işlənmiş və əsaslandırılmışdır.*

***Açar sözlər:*** *turizm müəssisələri, rəqabətqabiliyyətlilik problemləri, rəqabətqabiliyyətinin yüksəldilməsi məsələləri, dövlət tənzimlənməsi mexanizmləri, turizm sektoru, hüquqi baza, hüquqi bazanın təkmilləşdirilməsi yolları, turizm müəssisələrinin inkişaf perspektivləri.*

## Giriş

Müasir dünyada turizm sənayesi mühüm və sürətlə inkişaf edən sahələrdən biridir, belə ki, turizm xidmətləri sayəsində dünya ölkələrində insanlar daim səyahətlər edir, mənəvi ehtiyaclarını ödəyirlər. Turizm dünyanın bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinin iqtisadi fəaliyyətinin mühüm tərkib hissəsi olmaqla, iqtisadiyyatın ən böyük və dinamik sahələrindən biri kimi qiymətləndirilir. Bu iqtisadiyyat sektorunun yüksək inkişaf templəri, böyük həcmdə valyuta daxilolmaları iqtisadiyyatın müxtəlif sahələrinə fəal təsir göstərir ki, bu da turizm müəssisələrinin formalaşmasına və inkişafına əlverişli şərait yaradır. Dünyada turizm həmçinin müasir insanın həyatının ayrılmaz hissəsidir, onun istirahət və asudə vaxtının, hərəkət azadlığının, mədəni dəyərlərə çıxış hüququnun, habelə hamılıqla tanınmış digər insan və vətəndaş hüquqlarının həyata keçirilməsi ilə bilavasitə əlaqəlidir. Bununla yanaşı, turizm mühüm sosial-iqtisadi, mədəni, ekoloji, beynəlxalq və digər funksiyaları yerinə yetirir. Ona görə də XXI əsrdə qlobal tendensiya kimi turizmin

*©Nihad Ramiz oğlu Hüseynov Sumqayıt Dövlət Universiteti, doktorant. E-mail: nihadhuseyn@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

şəxsiyyət, cəmiyyət və bütövlükdə dövlət üçün rolu artmaqdadır [9, s.10]. Hazırda bir sıra ölkələrdə turizm ümumi daxili məhsulun formalaşmasında, əlavə iş yerlərinin təşkilində və əhalinin məşğulluğunun təmin edilməsində, xarici ticarət balansının aktivləşdirilməsində kifayət qədər mühüm rol oynayır. Nəticə etibarı ilə turizm ölkə iqtisadiyyatının bir çox sahələrinə, o cümlədən nəqliyyat, tikinti, rabitə, əmtəə istehsalı və xidmət sahələrinə təsir göstərir [11, s.30]. Bununla yanaşı, turizm özünün multiplikativ təsir xüsusiyyətləri hesabına əhalinin məşğulluğuna da müsbət təsir göstərmək imkanlarına malikdir. Onu da qeyd etmək yerinə düşər ki, istənilən iqtisadi sektorda, o cümlədən turizmdə tələb və təklif kimi amillərin qarşılıqlı əlaqəsi həm bütövlükdə ölkənin, həm də ayrıca regionun inkişafı maraqları naminə dövlət tərəfindən tənzimlənməni tələb edir. Ona görə də turizm müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsində dövlət tənzimlənməsi mexanizmlərinin və hüquqi bazanın təkmilləşdirilməsi çox vacibdir. İstənilən müəssisənin, o cümlədən turizm müəssisəsinin uğurunun əsas amili onun rəqabətqabiliyyətliliyidir. Turizm müəssisələrinin rəqabət qabiliyyətinin qiymətləndirilməsi məhsulun, marketinq fəaliyyətinin, bütövlükdə müəssisənin rəqabət qabiliyyətini xarakterizə edən göstəricilər toplusunun hesablanması, şərhi və təhlilidir.

Turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin mühüm amili kimi onun innovasiya fəaliyyəti çıxış edir. Turizm müəssisəsinin innovativ fəaliyyət səviyyəsi onun innovasiya potensialından istifadənin səmərəliliyini əks etdirir. Turizm müəssisəsinin innovasiya fəaliyyətinin uğuru onlar tərəfindən innovativ strategiyanın düzgün seçilməsindən asılıdır. Turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətlərindən biri bu sahədə sahibkarlığı inkişaf etdirməkdir. Turizm sektorunda sahibkarlıq növbəti yollarla inkişaf etdirilə bilər: bazarda səmərəli qarşılıqlı əlaqə vasitələrinin işlənib hazırlanması və kollektiv təhlükəsizlik sisteminin yaradılması; biznesin təkmilləşdirilməsi üçün yeni istiqamətlərin və texnologiyaların formalaşdırılması; bazarın təkmilləşdirilməsi və effektiv reklam siyasəti; xərclərin azaldılması, risklərin minimuma endirilməsi və biznesin inkişafı; informasiya texnologiyalarının tətbiqi və kadrların təkmilləşdirilməsi [12, s.300]. Bu tədbirlərin reallaşdırılması və sistemli şəkildə turizm müəssisələrinin potensialının yüksəldilməsi turizm xidmətlərinin diversifikasiyalaşdırılmasına müsbət təsir göstərə bilər.



**Azərbaycanda turizm müəssisələrinin rəqabətqabiliyyətinin artırılması imkanları və qanunvericilik bazasının müasir vəziyyəti**

Qeyd edək ki, dünya ölkələrində turizm sektorunun inkişafı ilə bağlı Beynəlxalq Turizm və Səyahət Rəqabətliliyi Hesabatı hazırlanır. Həmin hesabatda dünya ölkələrinin turizmin inkişafı üzrə reytinq qiymətləndirmələri aparılır ki, onun da nəticələri Beynəlxalq İqtisadi Forumun rəsmi saytında yerləşdirilir. Bu forum iki ildən bir müxtəlif ölkələrin bazarlarını təhlil edir. 2019-cu il Beynəlxalq Turizm və Səyahət Rəqabətliliyi Hesabatında Azərbaycanın 140 ölkə arasında reytinqi açıqlanıb. Ölkəmiz turizm sənayesində bir çox tanınmış liderləri qabaqlayaraq 71-ci yerdə qərarlaşıb. Beynəlxalq turizm rəqabətqabiliyyətliliyi reytinqi turizmin davamlı inkişafını təmin edən və rəqabətqabiliyyətliliyinə şərait yaradan bir sıra amilləri və şərtlər əsasında qiymətləndirilir [8] **.** Ölkəmizin reytinqinin aşağı olması bir sıra səbəblərlə, o cümlədən ölkəmizə gələn turist axınının az olması, daxili turizmin qeyri-sabit inkişafı, onlara mövcud tələblə turist xidmətləri təklifinin azalması ilə əlaqədardır. Həmçinin, daxili turizm bazarında formalaşan yüksək qiymət səviyyəsini də qeyd edə bilərik. Turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin və məhsulunun keyfiyyətinin yüksəldilməsində kadrların rolunu qeyd etmək lazımdır. Çünki xidmətin keyfiyyəti işçilərin peşəkarlığından və bacarıqlarından asılıdır. Ona görə də turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin mühüm amili kadr

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

idarəçiliyi ilə bağlıdır. İnsanı əməyə sövq edən motivləri və onların baş vermə mexanizmlərini bilmək kadrların idarə edilməsi sistemini inkişaf etdirməyə imkan verir. Azərbaycan Respublikasında turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması üçün idman, çimərlik və sağlamlıq turizmini inkişaf etdirmək lazımdır. Sağlamlıq turizminə tələbat daha çox artır. Təkcə Azərbaycanda deyil, bütün dünyada sağlamlıq turizminə tələbat durmadan artır. Bunun əsas səbəbləri insanların keyfiyyətli sağlamlıqla bağlı xidmətlərə, sağlamlıq turizminə, o cümlədən müalicə, fiziki və psixi yorğunluğun reabilitasiyasına, xüsusi qulluq və digər kosmetik xidmətlərə çıxışını təmin etməkdir. Qlobal miqyasda turizm sənayesində tibbi xidmətlərin birbaşa payı 10%-dən çox, multiplikator effektinin yaratdığı dəyər isə 20%-ə yaxınlaşır. Sağlamlıq turizminin inkişafı üçün ölkəmizin zəngin təbii resurs potensialının və qanunvericilik bazasının olması bu sahənin cəlbediciliyini artırır [4, s.6]. Mövcud kompleksin resurslarından istifadə etməklə sanatoriya-kurort turizm məhsulunun həyata keçirilməsi tələb olunur. Həmçinin, bu sahədə qanunvericilik bazasının qəbulu və təkmilləşdirilməsi zəruridir.

Bütün bunlar turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində dövlət tənzimlənməsinin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Azərbaycanda bununla bağlı “Turizm haqqında” Qanun imzalanmışdır və bu qanun turizm xidmətlərinin göstərilməsi zamanı yaranan münasibətləri tənzimləməyə imkan verir. Həmin qanuna əsasən turizm fəaliyyətinin dövlət tənzimlənməsinin əsaslandığı bir sıra prinsipləri müəyyən etmək mümkündür [7]. Həmçinin, turizm sektorunda dövlət idarəetməsinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti tərəfindən 20 aprel 2018-ci il tarixində “Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin yaradılması” haqqında sərəncam imzalanmışdır və bununla da turizm sektorunun inkişafına yeni imkanlar yaradılmışdır [3]. Ölkəmizdə turizmin inkişafı baxımından “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında fərman da əhəmiyyətlidir. Həmin fərmanda regionlarda turizmin müxtəlif növlərinin inkişafının dəstəklənməsi, habelə turizm sektorunda göstərilən xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi əsas prioritetlərdəndir [1, s.16].

Turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair strateji yol xəritəsininnin rolunu da qeyd etmək lazımdır. Strateji yol xəritəsi turizm müəssisələrinin fəaliyyətinin dəstəklənməsi, beynəlxalq və yerli bazarlarda yüksək keyfiyyətli və rəqabətqabiliyyətli turizm xidmətlərinin göstərilməsi, turizm təcrübələrinin milli dəyərlərə uyğun formalaşdırılması, turizmin inkişafı ilə bağlı müasir innovasiyalara əsaslanan yeni investisiya layihələrinin reallaşdırılması, bu sahədə müvafiq orqanlarla qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi üzrə tədbirləri özündə əks etdirir [2, s.4]. Qeyd edilən proqramlar və normativ-hüquqi aktlar Azərbaycanda həm müasir yüksək səmərəli və rəqabətqabiliyyətli turizm müəssisələri kompleksinin yaradılması, həm yerli və xarici vətəndaşların turizm xidmətlərinə olan ehtiyaclarını ödəmək üçün geniş imkanlar təmin edilməsi, həm də ölkənin inkişafına mühüm töhfə verməsi baxımından əhəmiyyətlidir. Ona görə turizm müəssisələrinin fəaliyyətinə hərtərəfli dəstək dövlətin prioritet vəzifələrindən birinə çevrilməlidir. Yuxarıda qeyd edilən proqramlar və normativ-hüquqi aktlar turizm müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsində əsas dövlət tənzimlənməsi mexanizmlərini əks etdirən hüquqi bazadır. Bunlarla bərabər, ölkənin turizm müəssisələrinin rəqabət qabiliyyətini artırmaq üçün dövlət orqanları ilə biznes strukturları arasında optimal təşkil olunmuş sistemli iş aparılmalıdır. Turizm müəssisələrinin inkişafı təkcə səlahiyyətli orqanların çərçivəsində qalmamalı, iqtisadiyyatın turizm sektoruna birbaşa təsir göstərən



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

digər iqtisadiyyat sahələri də bu prosesə cəlb edilməlidir. Bunun üçün turizm müəssisələrinin rəqabət qabiliyyətinin artırılmasına kömək edəcək bu strukturları müəyyən funksional bloklara birləşdirərək, onların kompleks işləməsi üçün modelin hazırlanması vacibdir və belə bir modeli şəkil 1-dəki kimi təklif edirik.

**Şəkil 1.**

**Milli turizm məhsulunun yaradılması üzrə idarəetmə sisteminin strukturu**




**Şəkil müəllif tərəfindən tərtib olunub.**



Hakimiyyət və idarəedici orqanların idarəetmə sistemi daxilində bütün zəruri strukturlar, turizm məhsulunun rəqabət qabiliyyətinin idarə edilməsinin vahid sistemi formalaşdırılır. Bu yanaşma turizm müəssisələrini müəyyən bir xidmət yaratmaq məqsədilə birgə biznes fəaliyyətləri üçün sənaye tərəfdaşları ilə əməkdaşlığa təşviq edir. Bu yanaşma turizm klasterlərinin müəyyənləşdirilməsinə və sistemli inkişafına əsaslana bilər. Ümumiyyətlə, Azərbaycanın turizm müəssisələrinin rəqabət qabiliyyətinin artırılması istiqamətləri turistlərə təkcə mədəni və təbii obyektlərin yoxlanılması üçün əlçatanlığı deyil, həm də təhlükəsizliyi, rahat yaşayışı və turizm imkanlarını təmin etməyə qadir olan ölkənin əlverişli imicinin formalaşmasına xidmət etməlidir. Bu gün turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün dövlət tənzimlənməsi mexanizmləri və hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində aparılan fəal siyasət, dövlətin diqqətli münasibəti və ölkədə genişmiqyaslı beynəlxalq mədəniyyət və idman tədbirlərinin həyata keçirilməsi nəticəsində bu sektorun inkişaf dərəcəsi son illər bir qədər yüksəlmişdir. Son illər ölkəmizdə turizmin inkişafı istiqamətində uğurlu işlər həyata keçirilir. Qeyri-neft sektorunun inkişafı ilə əlaqədar olaraq turizm prioritet sahələrdən biri hesab olunur. Bunun üçün bir sıra islahatlar aparılıb, müxtəlif illərdə dövlət proqramları və prezident sərəncamları imzalanıb, turizmin inkişafı ilə bağlı aidiyyəti qurumlara tapşırıqlar verilib. Tədbirlər planına uyğun olaraq aparılan işlərin nəticəsidir ki, turizm sahəsində nəzərə çarpacaq inkişaf müşahidə olunur. Regionlarda mehmanxanaların, iaşə obyektlərinin və digər turizm müəssisələrinin sayı xeyli artmışdır. Regional turizm sahəsində çalışan turoperator və turagentlərin fəaliyyəti daha da genişləndirilmişdir. Nəticədə bölgələrə turist axını xeyli artıb [6, s.127]. Turizm üzrə xarakterik olan sahələr üzrə bəzi göstəricilərin artım dinamikası bunu deməyə əsas verir (cədvəl 1).

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Cədvəl 1.**

**Turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilər**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Yaradılmış əlavə dəyərin həcmi, milyon manat | 2437,3 | 2746,1 | 3151,0 | 3464,3 | 3704,9 | 1370,1 |
| ÜDM-in həcmi, milyon manat | 54380,0 | 60425,2 | 70337,8 | 80092,0 | 81896,2 | 72432,2 |
| Yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə | 4,5 | 4,3 | 4,5 | 4,3 | 4,5 | 1,9 |
| İnvestisiyaların həcmi, milyon manat | 1063,9 | 363,0 | 267,3 | 229,7 | 133,7 | 79,3 |

Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib olunub-https://www.stat.gov.az/

Cədvəl 1-dən göründüyü kimi, turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin həcmi 2020-ci ilədək davamlı olaraq artmışdır. Lakin COVİD-19 pandemiyası səbəbində onun həcmi 2019-cu illə müqayisədə 2,7 dəfə azalmışdır. 2019-cu ildə yaradılmış əlavə dəyərin həcmi isə 2018-ci illə müqayisədə 6,9%, 2017-ci illə müqayisədə 17,6%, 2015-ci illə müqayisədə 52,0% artmışdır [5]. Bütün bunlara baxmayaraq, yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi demək olar ki artmamışdır. Həmçinin, 2015-ci ildən etibarən bu sahəyə qoyulan investisiyaların həcmi də davamlı olaraq azalmışdır. Əgər turizm üçün xarakterik olan sahələrə qoyulan investisiyaların həcmi 2015-ci illə müqayisədə 2016-cı ildə 2,9 dəfə azalmışdırsa, artıq 2019-cu ildə 8 dəfəyə qədər, 2020-ci ildə isə 13,4 dəfə azalmışdır. Çalışan işçilərin sayına gəlincə, bunu şəkil 2-dən daha aydın görə bilərik.



**Şəkil 2.**

**Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, nəfər**




Mənbə: Şəkil DSK məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Şəkil 2-dən görünür ki, turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı ən çox 2019-cu ildə olmuşdur. Bu rəqəm 58972 nəfər təşkil etmişdir. Bir nəfər işçiyə düşən yaradılmış əlavə dəyərin həcmi isə 62824,7 manat olmuşdur.

**Azərbaycanda turizm müəssisələrinin rəqabətqabiliyyətinin və hüquqi bazanın təkmilləşdirilməsi istiqamətləri**

Aparılan təhlillər onu deməyə əsas verir ki, bu sahə kifayət qədər ölkənin aparıcı sektoruna çevrilməmişdir. Bunun əsas səbəbi dövlət dəstəyinin və investisiya cəlbediciliyinin zəif olması ilə əlaqələndirmək olar. İnvestisiyalar demək olar ki, sahibkarların öz vəsaitləri hesabına yatırılır. Ona görə də turizm müəssisələrinin inkişafına dövlət dəstəyinin artırılması prioritet vəzifələrindən biridir. Turizm müəssisələrinin inkişafına dəstəyin prioritet istiqamətləri ilə yanaşı, bu sahədə dövlət tənzimlənməsinin üç prioritet vəzifəsini müəyyən edə bilərik Bu, ilk növbədə: turizmin müxtəlif növlərinə dövlət

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

dəstəyi, turizm təhlükəsizliyinin təkmilləşdirilməsi, o cümlədən yeni hüquqi və maliyyə təhlükəsizlik mexanizmlərinin inkişafı və turizm müəssisələrinin hüquqi tənzimlənməsinin daha da təkmilləşdirilməsi və inkişafı. Turizm sahəsində dövlət tənzimlənməsinin birinci prioritet vəzifəsi müxtəlif turizm növlərinə dövlət dəstəyidir. Bunun üçün dövlət turizm növlərini dəstəkləməsi üçün əsas tədbirləri həyata keçirir və bunlara aiddirlər:

- Azərbaycan Respublikasının ərazilərinin tarixi-mədəni zonalarında turizm və xidmət infrastrukturunun genişləndirilməsi, o cümlədən mədəniyyət və turizm zonalarının, tarix və mədəniyyət abidələrinin, xidmət obyektlərinin formalaşdırılması üçün şəraitin yaradılması.
- Azərbaycan Respublikasının daxilində səyahət xərclərini ödəyərkən fiziki şəxslərin gəlirlərinə sosial vergi tətbiq etməklə sosial turizmə dəstək üçün vergi alətinin yaradılması.
- Azərbaycanda daxili turizmin təşviqi, o cümlədən turizm və rekreasiya zonalarında turizm məhsullarının təşviqi, habelə onlara investorların cəlb edilməsi üçün büdcə ayırmalarının əhəmiyyətli dərəcədə artırılması.
- Azərbaycanın turizm məhsulunu tanıtmaq üçün xaricdə milli turizm nümayəndəlikləri şəbəkəsinin genişləndirilməsi.
- “Azərbaycanda turizm” çoxdilli dövlət informasiya portalının yaradılması və yayılması.
- Dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi.



Proqram-məqsədli metodu tətbiq etməklə dövlət daxili turizm sahəsində öz siyasəti üçün optimal şəraiti yüksək səmərəliliklə təşkil edə bilir. Dövlət səviyyəsində məqsədli proqramların hazırlanması üçün aşağıdakı prinsiplərə əsaslanmaq lazımdır:

- turizmin inkişafına yönəlmiş investisiya layihələrində iştirak edən sahibkarlıq subyektlərinin dəstəklənməsinin mövcud metov və vasitələrinin genişləndirilməsi və təkmilləşdirilməsi;
- büdcədənkənar fondların yaradılması və inkişafına investisiyaların cəlb edilməsi məqsədilə dövlət-özəl tərəfdaşlıq prinsiplərinin həyata keçirilmə sahəsinin genişləndirilməsi;
- turizm müəssisələrinin və onların birliklərinin yaradılması layihələrinin həyata keçirilməsinin konkret ardıcıl mərhələlərinin işlənib hazırlanması.

Turizm sahəsində dövlət tənzimlənməsinin ikinci prioritet vəzifəsi turizm təhlükəsizliyinin təkmilləşdirilməsi, o cümlədən təhlükəsizliyin təmin edilməsi üçün yeni hüquqi və maliyyə mexanizmlərinin işlənib hazırlanmasıdır. Bunun üçün tələb olunur:

- Xaricə gedən turistlərin icbari sığortasının qanunvericiliklə tətbiqi, bu sığorta növünə daxil olan risklərin və sığorta xidmətlərinin minimum toplusunun müəyyən edilməsi.
- Xaricdə çətin vəziyyətdə olan azərbaycanlı turistlərə hüquqi və digər növ təcili yardımın göstərilməsi üçün hüquqi mexanizmlərin yaradılması, bunun üçün konsulluq xidmətlərinin maliyyələşdirilməsi prosedurunun işlənib hazırlanması.
- Milli turizmin xaricdə nümayəndəliklərinin açılması, onlara xarici ölkələrdə azərbaycanlı turistlərə təcili yardımın göstərilməsi funksiyalarının həvalə edilməsi (konsulluq xidmətləri ilə birlikdə).

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- ⇨ Təhlükəsizlik və istirahət mədəniyyətinin yüksəldilməsinə yönəlmiş tədbirlər kompleksinin işlənib hazırlanması və həyata keçirilməsi.
- ⇨ Azərbaycan Respublikasının hökumətlərarası sazişinə turizm təhlükəsizliyinə dair müddəaların daxil edilməsi və mövcud olanların yenidən nəzərdən keçirilməsi.

Turizm sahəsində dövlət tənzimlənməsinin üçüncü prioritet vəzifəsi turizmin hüquqi tənzimlənməsinin daha da təkmilləşdirilməsi və inkişafıdır. Turizmin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi və inkişafı sahəsində bir sıra əsas vəzifələr dayanır. Turizmin hüquqi tənzimlənməsi sahəsində əsas vəzifələr aşağıdakılardır:

- ➢ Turoperatorların məsuliyyətinin və maliyyə təminatı mexanizminin təkmilləşdirilməsi.
- ➢ Turistlərin həyatına və sağlamlığına vurulan zərərə və digər qanun pozuntularına görə turoperatorların hüquqi məsuliyyətinin artırılması.
- ➢ Təlimatçı-bələdçilərin, bələdçilərin, bələdçi-tərcüməçilərin məcburi sertifikatlaşdırılmasının tətbiqi.
- ➢ Azərbaycan Respublikasının təsis qurumlarının dövlət hakimiyyəti orqanlarına turizmin inkişafı üçün səlahiyyətlərin verilməsi.
- ➢ Yetkinlik yaşına çatmayan turistlərin səyahətinin hüquqi tənzimlənməsinin xüsusiyyətlərinin müəyyən edilməsi, onların təhlükəsizliyinin yaxşılaşdırılması üçün əlavə tədbirlərin tətbiqi.
- ➢ Milli turizm sahəsində özünütənzimləyən təşkilatlara dövlət reyestrini aparmaq səlahiyyətinin verilməsi.
- ➢ Azərbaycan Respublikasında turizm məhsulunun satışının uçotu üçün vahid avtomatlaşdırılmış məlumat sisteminin işləməsi üçün hüquqi bazanın formalaşdırılması.
- ➢ Mədəni turizmin inkişafı üçün normativ-hüquqi bazanın təkmilləşdirilməsi.
- ➢ Xaricə gedən turistlərin xərclərinin, habelə Azərbaycan daxilində turizm marşrutlarının icbari sığortasının tətbiqi.

Turizm müəssisələrinin fəaliyyət sahəsində hüquqi tənzimləmənin predmeti səyahətin hazırlanması, təşkili, həyata keçirilməsi, onların təzahürünün vətəndaşların həyatına, sağlamlığına və əmlakına mənfi təsirlərinin aradan qaldırılması prosesində, habelə turizmlə bağlı inkişaf edən ictimai münasibətlərdir [10, s.34]. Turizm hüquqi münasibətləri hüquqi sahələr kompleksinin - konstitusiya, əmək, mülki, inzibati, beynəlxalq ictimai və xüsusi hüquq və digər sahələrin turizm sahəsində ictimai münasibətlərə təsirinin nəticəsidir. Turist münasibətləri müxtəlif hüquq sahələri ilə tənzimlənir. Turizm müəssisələrinin fəaliyyətinin inkişafı vətəndaşların fiziki və mənəvi inkişafı və sağlamlığının ən mühüm vasitəsi, ölkənin yeniləşməsi və dirçəlişinin təminatıdır. Turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində hüquqi bazanın təkmilləşdirilməsi perspektivləri birbaşa milli və regional səviyyədə dövlət tənzimlənməsindən asılıdır. Turizm müəssisələrinin dövlət tənzimlənməsinin prioritet istiqamətləri daxili, gəlmə, sosial, idman və həvəskar turizmin dəstəklənməsi və inkişafı hesab olunur. Turizm müəssisələrinin davamlı inkişafı turizm fəaliyyətinin tənzimlənməsi strukturunun formalaşmasında müəyyənedici prinsipdir. Davamlı inkişaf sosial və iqtisadi, ekoloji amilləri, canlı və cansız resurs bazasını, alternativ tədbirlərin uzun və qısamüddətli üstünlüklərini və mənfi cəhətlərini nəzərə almalıdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Nəticə**

Qeyd etmək lazımdır ki, dövlətin qarşıya qoyduğu məqsədlərə nail olmaq üçün istifadə edilən ən mühüm metodlardan biri turizm müəssisələrinin inkişafı üzrə dövlət, sahə və regional proqramların işlənib hazırlanması və həyata keçirilməsidir. Bu üsul turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə ən mühüm dövlət təsiridir. Ümumiyyətlə, turizm müəssisələrini elə inkişaf etdirmək lazımdır ki, yerli iqtisadiyyatı gücləndirsin, təbii sərvətlərdən rasional və ehtiyatlı istifadə etsin, yerli əhaliyə işlə təmin olunmaqla fayda versin, yerli sənətkarlığın inkişafına dəstək olsun, turistlər üçün infrastruktur və xidmətləri inkişaf etdirsin. Turizm sektorunda normativ-hüquqi tənzimləmənin inkişafının əsas istiqamətləri turizm müəssisələrinin fəaliyyətinin bütün sahələrinin təkmilləşdirilməsinə aid olan hüquqi aktların hazırlanmasına imkan verir. Bura dövlət və regional qanunvericiliyin inkişafı, investisiya fəaliyyətinin stimullaşdırılması, turizm xidmətlərinin keyfiyyətinin artırılması və daxili turizmə dövlət dəstəyi daxildir. Turizm təhlükəsizliyi mədəniyyətinin yüksəldilməsinə yönəlmiş və turistlər arasında şəxsi təhlükəsizliyin təmin edilməsinə, ətraf mühitin, mədəni, tarixi və təbii irsin qorunmasına şüurlu münasibətin formalaşdırılmasını nəzərdə tutan tədbirlərin həyata keçirilməsi də təxirəsalınmaz məsələdir. Hazırda Azərbaycan Respublikasında turizm xidmətlərinin göstərilməsi zamanı yaranan münasibətlərin hüquqi tənzimlənməsinin ciddi inkişafı prosesləri gedir. Bugünkü turizm müəssisələrinin fəaliyyətinin əsas prinsipi onların sabit inkişafıdır. Ümumiyyətlə, Azərbaycanda turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün onların potensialının üzə çıxarılması vacibdir. Azərbaycanda turizm müəssisələrinin potensialını üzə çıxarmaq üçün aşağıdakı bütün tədbirlər kompleksini həyata keçirmək lazımdır: prioritet olan turizm növləri ilə bağlı aktiv coğrafi elementlərin yaradılması strategiyasının həyata keçirilməsi, onun çərçivəsində mərkəzlərin yerləşdiyi yerdən asılı olaraq həm xarici, həm də dövlət investisiyalar əsasında bəzi turizm layihələrinin həyata keçirilməsi; respublika və regionlar səviyyəsində milli turizm məhsulunun rəqabət qabiliyyətini artırmaq üçün strateji konsepsiyalar hazırlamaq; kadr məsələləri və turizmin normativ bazası ilə bağlı problemlərin həlli üçün tövsiyələr hazırlamaq; özəl və dövlət investisiyalarının cəlb edilməsi üçün biznes planları və kompleks tədbirlər hazırlamaq; turizm üçün marketinq konsepsiyasını hazırlamaq.



**Ədəbiyyat**


1. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. https://youthfoundation.az/wp-content/uploads/2019/04/Regionlarin-inkisafi-Dovlet-Proqram%C4%B1_2019-2023.pdf.
2. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi - https://mida.gov.az/documents/Turizm_s%C9%99nayesinin_inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf.
3. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. https://www.e-qanun.az/framework/40087.
4. Azərbaycanda Sağlamlıq Turizmi - Cari vəziyyət və inkişaf perspektivləri hesabatı. Bakı: Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, 2021, 183 s.
5. Azərbaycanda Turizm. Statistik məcmuə. 2021 – 99 s. - https://www.stat.gov.az/.
6. Mikayılova, Ə.A., Mirzəyev, A.F. Strateji yol xəritəsinə əsasən regionlarda inkişaf etdirilməsi prioritet hesab edilən turizm növləri. Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər mövzusunda IV beynəlxalq elmi-praktiki konfrans, Bakı Mühəndislik Universiteti, 4-5 may 2019, s.127-131.
7. Turizm haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 4 iyun 1999-cu il, № 674-I. http://www.e-qanun.az/framework/4759.


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

8. Turizm sahəsində ölkələrin rəqabətqabiliyyətlilik reytinqi açıqlanıb. 19.11.2019 - https://azertag.az/xeber/Turizm_sahesinde_olkelerin_reqabetqabiliyyetlilik_reytinqi_achiqlanib-1356935.
9. Бацазов, Р.А., Хаматова, С.Х. Туризм как объект государственно-правового воздействия // Актуальные проблемы права: Сборник научных статей магистрантов. Владикавказ: Северо-Кавказский горно-металлургический институт, 2021, с.10-13.
10. Кириченко, Ю.Н., Тарасенко, А.А., Устин, В.Д. Элементы правового регулирования сферы туристической деятельности // Молодежь и системная модернизация страны: Сборник научных статей 6-й Международной научной конференции студентов и молодых ученых, в 3-х томах , Курск, 20–21 мая 2021 года. Курск: Юго-Западный государственный университет, 2021, с.33-37.
11. Клев, Д.Д. Экономические показатели развития туризма // Социально-экономическое управление: теория и практика. 2020, № 1(40), с.30-32.
12. Саченок, Л.И., Змерзлый Б.В. Направления государственно-правового регулирования туристической деятельности // Ученые записки Крымского федерального университета имени В.И. Вернадского. Юридические науки, 2021, т. 7, № 1, с.289-303.
13. Субботина, Т.А., Киселева А.С. Государственное регулирование туризма // Стратегия устойчивого развития в антикризисном управлении экономическими системами: Материалы VII Международной научно-практической конференции, Донецк, 08 апреля 2021 года. Курган, г. Донецк: Донецкий национальный технический университет, 2021, с.226-232.



***Нихад Рамиз оглу Гусейнов***

***докторант Сумгаитского Государственного Университета***

***E-mail: nihadhuseyn@mail.ru***


### *Механизмы государственного регулирования и пути совершенствования нормативно-правовой базы повышения конкурентоспособности туристических предприятий*

### *Резюме*


*Цель исследования – выявление механизмов государственного регулирования и определение путей совершенствования нормативно-правовой базы для повышения конкурентоспособности туристических предприятий. Для этого были озвучены проблемы конкурентоспособности туристических предприятий и указана роль государственного регулирования в решении этих проблем. Решая серьезные задачи, стоящие перед туристической отраслью в период пандемии COVID-19, были рассмотрены вопросы совершенствования механизмов работы туристических предприятий. Исследованы приоритетные вопросы государственного регулирования туризма. Обоснована важность оптимальной правовой базы для решения проблем эффективности туристического сектора и подготовлены предложения по ее улучшению. Методология исследования - проанализированы и систематизированы теоретико-методологические подходы к изучаемым проблемам на практике и в экономической литературе. В статье, в основном, используются методы анализа, синтеза и обобщения. Практическая значимость исследования – сформированные научно-практические взгляды и научные положения могут быть полезны при разработке нормативных государственных мер и совершенствовании нормативно-правовой базы с целью повышения конкурентоспособности туристических предприятий. Результаты исследования-обоснована необходимость поднятия туристических предприятий в условиях современных глобальных влияний, а так же необходимость более гибкой государственной поддержки этих предприятий в постпандемический период. Оригинальность и научная новизна исследования - в контексте новых вызовов и в условиях обострения глобальных проблем сформировался современный научно-экономический и практический подход к конкурентоспособности туристических предприятий. Обоснованы и даны возможности повышения эффективности мер по совершенствованию механизмов государственного регулирования туристических предприятий. В соответствии с требованиями современности разработаны и обоснованы предложения по обновлению и совершенствованию механизмов государственного*




*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

*регулирования для повышения уровня конкурентоспособности туристических предприятий, а так же по укреплению нормативно-правовой базы.*

***Ключевые слова:*** *туристические предприятия, проблемы конкурентоспособности, вопросы повышения конкурентоспособности, механизмы государственного регулирования, туристический сектор, правовая база, пути совершенствования правовой базы, перспективы развития туристических предприятий.*

***Nihad Ramiz Huseynov***
***doctoral student of SumgaitState University***
***E-mail: nihadhuseyn@mail.ru***

***Mechanisms of government regulation and ways to improve the regulatory framework to increase the competitiveness of tourism enterprises***

***Summary***

*Purpose of the research is to identify mechanisms of state regulation and ways to improve the regulatory framework for increasing the competitiveness of tourism enterprises. To this end, the problems of competitiveness of tourism enterprises are given and the role of state regulation in solving these problems is indicated. Addressing the serious challenges facing the tourism industry during the Covid-19 pandemic, issues of improving the mechanisms of tourism enterprises are considered. Priority issues of state regulation of tourism are studied. The importance of the optimal legal framework for solving problems of the efficiency of the tourism sector is justified and proposals for its improvement are prepared. Research methodology – theoretical and methodological approaches to the problems studied in practice and in the economic literature are analyzed. Methods of analysis, synthesis and generalization are used in the article. The practical importance of a research – the formed scientific and practical views and scientific provisions can be useful in developing regulatory state measures and improving the regulatory and legal framework in order to increase the competitiveness of tourism enterprises. The results of the study are justified by the need to raise tourism enterprises in the context of modern global influences, as well as the need for more flexible state support for these enterprises in the post-pandemic period. Originality and scientific novelty of the research – in the context of new challenges and in the face of global problems, a modern scientific, economic and practical approach to the competitiveness of tourism enterprises is formed. The possibilities of improving the efficiency of measures to improve the mechanisms of state regulation of tourism enterprises are justified. In accordance with modern requirements, proposals are developed and justified for updating and improving state regulation mechanisms to increase the level of competitiveness of tourism enterprises, as well as for strengthening the regulatory framework in this sphere.*

***Keywords:*** *tourism enterprises, competitiveness problems, issues of improving competitiveness, mechanisms of state regulation, tourism sector, legal framework, ways of improvement of the legal framework, prospect of development of the tourism enterprises.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 12.10.2021.***
***Çapa qəbul olunub: 20.10.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*